## AYRILAN PULU XƏRCLƏMƏYİB, GƏLƏN İL ÜÇÜN DAHA ÇOX PUL İSTƏYİBLƏR

# KİNOÇƏKƏNLƏRİN BAŞI DƏRDDƏ



**2026-cı ilin dövlət büdcəsində kino çəkilişinə pul ayrılmaması ciddi narazılıqlara səbəb olub. Mütəxəssislərin fikrincə, kinoya rəhbərlik edən adamların ətrafında bu sahəni bilən ekspertlərin olması lazımdır.**





TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Son günlər milli kinomuzun ətrafında intensivləşən maliyyələşmə müzakirələri bu sahədə mövcud olan digər problemləri də üzə çıxarıb. Kino Agentliyinə bu il ayrılan 8.5 milyon vəsaitin yalnız 41 faizinin istifadə olunması, beş milyon qalıq qalması quruma 2026-cı il üçün Maliyyə Nazirliyi tərəfindən əlavə pulun ayrılmasını əngəlləyib. Məsələ ilə bağlı həyəcan təbili Milli Məclisdə də çalınıb. MM-in Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu dövlət büdcəsindən kinoya vəsait ayrılmamasının təhlükə yaratdığını bildirib: "Kinoya vəsait ayrılmasa, bu sahədəki mütəxəssislər iş yerlərini tərk edəcəklər, kinomuz inkişaf edə bilməyəcək".

Komitə sədrinin bu fikirləri kino adamlarının bir növ ürəyini açıb.

Qeyd edək ki, hazırda kino sahəsi Mədəniyyət Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kino Agentliyi" (ARKA) publik hüquqi şəxs tərəfindən idarə olunur.

### ƏGƏR VƏSAİT AYRILMASA...

ARKA-dan bildirilib ki, kino sənayesi keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Belə ki, qurum ildə orta hesabla 8-10 tammetrajlı filmin istehsal olunduğunu, film layihələrinin istehsalına başlanıldığını, bu canlanmanın kino sənayesində iş yerləri yaratdığını bildirir. ARKA filmlərin yayım hüquqlarının satışına başlanıldığını, yerli kanallarla yayım paketi imzalandığını, filmlərin Kann, Venesiya kimi nüfuzlu festivallara ayaq açdığını, beynəlxalq əməkdaşlığın genişləndiyini də qeyd edir. Agentliyin diqqətində olan ən böyük iş isə dağılmış vəziyyətdə olan "Azərbaycanfilm" kinostudiyasının müasir kino sənaye parkına çevrilməsidir. Qurum 2025-ci il üçün büdcədən kino çəkilişi üçün ayrılmış vəsaitin xərclənməməsinə aydınlıq gətirərək, hesabında qalan 4,5 milyon manatın yalnız davam edən layihələrin maliyyələşdirilməsinə yönəldiyini açıqlayır. Qurum hesab edir ki, həyata keçirdiyi işlərin müqabilində 2026-cı il dövlət büdcəsində kino sənayesinə vəsait ayrılmaması əldə olunmuş inkişaf dinamikasının dayanmasına, "rebate" mexanizminin tətbiqinin ləngiməsinə və Azərbaycanın qlobal innovasiya indeksində mövqeyinin zəifləməsinə səbəb ola bilər.

Maraqlı bir paradoks yaranıb: əgər əvvəllər "pul yoxdur, kino da yoxdur" deyilirdisə, indi "pul var, kino yoxdur" fikirləri səslənir. Bəs yaranmış vəziyyətlə bağlı kino adamları nə düşünürlər?

### "PULLARIN XƏRCLƏNMƏMƏSİNİ DƏFƏLƏRLƏ SÖYLƏMİŞDİK"

Azərbaycan Kinematoqrafçılar İttifaqının icraçı katibi Əlisa Cabbarovun fikrincə, söhbət maliyyənin ayrılmamasından deyil, aidiyyəti orqanın 12 milyon dəyərində sorğusuna "yox" deyilməsindən gedir: "Səbəb 2025-ci il üçün ayrılan məbləğin cəmi 41 faizinin xərclənməsidir. Təxmin etmək olar ki, 2026-cı ilə ən azı dörd milyon ayrılacaq, əlavələrə ehtiyac olarsa, il boyu baxılmasına söz verilib". İcraçı katibin fikrincə, aidiyyəti orqanın kino istehsalının belə planlaması təəssüf doğurur: "Pulların xərclənməməsini dəfələrlə söyləmişdik. Obyektivlik naminə demək lazımdır ki, həm 2024, həm də 2025-ci ildə 10 milyon xərclənib. Amma bu, ayrılan məbləğin 41 faizidir. Səbəb layihə müsabiqələrinin azlığıdır. İldə ən azı üç müsabiqə olmalıdır. Dövlət vəsaitinə ən azı 10 premyera olmalıdır. Qısa və sənədli filmlərin sayı onlarla olmalıdır. Kinomuzun belə potensialı var, dövlətimiz də buna pul ayırır, amma aidiyyəti orqanın planlamanı səhv aparması nəticəsində belə hal yaranıb". Ə.Cabbarov hesab edir ki, kino sahəsinin maliyyələşməsi mütləq davam etməlidir, amma nəzarət də gücləndirilməlidir: "Bunun üçün kino təcrübəsi olan insanlar Kino Agentliyinə işə cəlb edilməlidirlər".



Əlisa Cabbarov



Əbdül Mahmudov

**"Ayrılan pulun heç 25 faizi gəlib kinostudiyaya çatmır"**

Kinorejissor Əbdül Mahmudov Azərbaycan kinosunun yaşaması üçün hər il büdcədən pul ayrıldığını bildirir: "Amma pul ayıranlar kinonun daxili strukturunu bilmədikləri üçün elə bilirlər ki, il ərzində 3-5 milyon ayrılmaqla böyük kino çəkmək olar. Yaxşı kino çəkmək üçün milyonlar lazımdır. Kino ümumilikdə xərc tələb edir. Filmin hazırlıq, çəkiliş, montaj prosesləri var. Bu kolxoz-sovxoz və ya fabrik-zavod deyil. Ayrılan pulun heç 25 faizi gəlib kinostudiyaya çatmır. Bir də pul təkcə kino çəkmək üçün ayrılmır ki! Kinonun maddi-texniki bazası bərpa olunmalıdır. Kinoya lazım olan atributların hamısı yerində olmalıdır ki, film çəkilsin. Digər tərəfdən, filmlər çəkilir, amma onları nümayiş etdirməyə kinoteatrlar yoxdur. Harada göstərsinlər? Televiziyalar özləri çəkdikləri filmləri nümayiş etdirirlər. Məsələn, əgər mən filmimi beş manata çəkmişəmsə, onun nümayişi üçün gərək 15 manat xərcləyəm. Agentlik nə etməlidir? Pulu çölə atmalıdır? Kinostudiya bərpa olunandan sonra biz dövlətə pul verəcəyik. Hazırda isə kinostudiya ölü vəziyyətdədir. Onu diriltmək üçün vəsait olmalıdır. Kino mərhələli yaradıcılıq prosesidir. Film bir günə çəkilmir ki, pul xərclənib qurtarsın". Rejissor həmçinin hesab edir ki, kino strukturunda qeyri-müəyyənlik var.

## "Problemin yaranması idarəetmə ilə bağlıdır"

Kinorejissor Yavər Rzayev da yaranmış duruma görə narahatdır. Onun fikrincə, "Azərbaycanfilm" kinostudiyasına sifariş verilməməsi suallar yaradır: "Bu, bizim üçün qaranlıq qalıb. Kinostudiyada hər şey var, az-maz köhnə işçilər də qalıb. Hiss edirəm ki, kinoda irəliləyiş var. Proses yavaş-yavaş gedir. Yeni nəsil üzə çıxır, 2-3 ad var ki, püxtələşib rejissor olacaq. Ancaq sistemi qurmaq üçün qanunu bilmək lazımdır. İncəsənətdə dəyərlər başqadır, bu, mal istehsal edən sahə deyil".

Rejissor hesab edir ki, problemin yaranması idarəetmə ilə bağlıdır: "Həm nazirin, həm də kinoya rəhbərlik edən adamların ətrafında kinonu bilən ekspertlərin, mütəxəssislərin olması lazımdır. Belə adamlar olsa, problem də yaranmaz".



Yavər Rzayev

**Foto:** Rüfət Mikayılov/Global Photostock